**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**TURAL İMAMƏLİ oğlu GÖZƏLZADƏ**

# SIĞORTA HÜQUQU VƏ ONUN MÜDAFİƏ FORMALARI

İxtisas: 5608.01 – "Mülki hüquq; ailə hüququ;
sahibkarlıq hüququ; beynəlxalq xüsusi hüquq"

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Mülki proses və kommersiya hüququ" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Hüquq üzrə elmlər doktoru**
**Mövsüm Allahverdi oğlu Mövsümov**

**Rəsmi opponentlər:** **Hüquq üzrə elmlər doktoru, professor**
**Məhəbbət Dəyirman qızı Dəmirçiyeva**

**Hüquq üzrə fəlsəfə doktoru**
**Rəna Arzuman qızı Abbasova**

**Aparıcı təşkilat:** **AMEA Hüquq və İnsan Haqları İnstitutunun "Mülki hüquq, mülki proses və sosial iqtisadi hüquqlar" şöbəsi**

Dissertasiya işinin müdafiəsi "___" "_____________" 2018-ci il tarixdə saat "_____" Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2018-cı il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru, dosent:** **Ə.Q.Məmmədov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı.** Hüquq elmində sosial sığortalar ilə birlikdə dövlətin sosial təminat sisteminin formalaşdırılmasına xidmət edən hüquqi vasitə olaraq özəl sığortalar da qəbul olunur. Müasir iqtisadi-sosial şəraitdə özəl sığortaların da inkişaf etdiyi müşahidə olunur. Təbii ki, bu inkişaf prosesində özəl sığorta münasibətlərinin subyekt tərkibi yeniləndiyi və oraya yeni subyektlər də daxil olduğu kimi, həmin subyektlərin hüquqları və bu hüquqların müdafiə formaları da dəyişir və yenilənir. Qeyd edilən dəyişmə və yenilənmə proseslərinin tədqiq olunması və öyrənilməsi önəmli olduğu kimi həm də faydalıdır. Məhz dissertasiya işinin aktuallığı ilk növbədə, digər maliyyə bazarları kimi, sığorta bazarlarının da sürətlə inkişaf etdiyi müasir iqtisadi-sosial şəraitdə sığorta münasibətlərinin subyektləri, onların sığorta hüquqları və bu hüquqların müdafiə formalarının tədqiq olunması, nəzəri problemlərinin öyrənilməsi və həll yollarının təklif edilməsi ilə bağlıdır.

Azərbaycan Respublikasının Konstitusiyasının 16-cı maddəsinin I bəndində qeyd edilir ki, "Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır". Keçən dövr ərzində həmin sosial müdafiənin təmini, sosial problemlərin həlli Ümummilli liderimiz Heydər Əliyev və onun siyasi kursunun layiqli davamçısı cənab prezidentimiz İlham Əliyev tərəfindən qarşıya qoyulan önəmli məsələlərdən biri olmuşdur. Bu isə öz növbəsində ölkəmizin sosial-iqtisadi baxımda inkişaf etməsi ilə nəticələnmişdir.

Maliyyə bazarlarında cərəyan edən hadisələrə baxmayaraq respublikamızda sosial-iqtisadi inkişafın indiki dövrdə də davam etdirildiyini cənab prezidentin 2016-cı ili "islahatlar ili" olaraq elan etməsi də təsdiqləyir. Gözlənilən islahatlar və keyfiyyət dəyişikliklərin sosial sahədə də aparılacağını 26 sentyabr 2016-cı il tarixində keçirilən referendum da sübut etmişdir. Orada qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının referendum aktının 4-cü bəndi ilə Konstitusiyamızın 29-cu maddəsinə "xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur" və "sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədi ilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər" – məzmunda iki bənd əlavə edilmişdir. Təbii ki, həmin əlavələr respublikamızın sosial dövlət kimi inkişafına, sosial problemlərin həllinə müsbət təsir göstərəcəkdir. Ümummilli liderimizin dediyi kimi, dövlətimizin siyasəti, iqtisadiyyatı inkişaf etdirməklə yanaşı, ilk növbədə sosial problemləri həll etməkdən ibarətdir.

Həmin problemlərin həlli, müasir tələblərə uyğun inkişaf etmiş güclü sosial dövlətin qurulması üçün ölkəmiz digər bir çox ölkə kimi vətəndaşlarının sosial müdafiəsini sosial sığorta və özəl sığorta sistemləri ilə təmin etməyə çalışır. Yəni, sosial sığortalar ilə birlikdə özəl sığortalar da dövlətin sosial təminat sisteminin əsasını təşkil edir. Bunlardan dissertasiyanın obyekti olan özəl sığortalar ölkəmizdə "Sığorta fəaliyyəti" haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "İcbari sığorta" haqqında Azərbaycan Respublikasının Qanunu və digər normativ hüquqi aktlar ilə tənzimlənir.

Maliyyə bazarlarındakı sürətli dəyişikliklər səbəbi ilə həmin qanunlar da qəbul edildiyi tarixdən sonra dəfələrlə dəyişdirilmiş və müasir tələblərə uyğunlaşdırılmağa çalışılmışdır. Bu qanunlarda mövcud olan boşluqların, ziddiyyətli məqamların təsbiti, ayrıca həmin qanunlarda tənzimlənmiş subyektiv sığorta hüquqlarının və onların müdafiə formalarının tədqiqi dissertasiyanın aktuallığını təsdiqləyir.

Qlobal iqtisadiyyatda, xüsusilə maliyyə bazarlarında 2015-ci ildə meydana gələn proseslər ölkəmizə də təsirsiz ötüşməmişdir. Bu səbəblə ölkəmizin sığorta qanunvericiliyində 2015-ci ildən başlayaraq bir sıra islahatlar aparılmışdır. Həmin islahatlar ölkəmizin sığorta sektorunun stabilliyinin və davamlı inkişafının təmin olunması məqsədinə xidmət etdiyi kimi, həm də sığorta münasibətlərinin subyektlərinin hüquqlarının müdafiəsinə də xidmət edir. Dissertasiya işinin aktuallığı həm də həmin islahatların tədqiq olunmasına dair olan ehtiyac ilə bağlıdır.

Müasir liberal bazar iqtisadiyyatı şəraitində istehsal olunmuş məhsul və xidmətlərin kreditli satış yolu ilə realizə olunması, bank və ya bank olmayan kredit təşkilatlarından kreditlərin verilməsi yolu ilə əmələ gələn öhdəliklər üçün mühüm təminat funksiyasına sahib olan özəl sığortanın təməli olan sığorta müqaviləsinin, onun subyektlərinin, həmin subyektlərin sahib olduğu hüquqların elmi baxımdan tədqiq olunması da dissertasiyanın aktuallığını göstərir.

Sığorta müqaviləsinin bağlanması yolu ilə onun subyektlərinin əldə etdiyi sığorta hüquqlarının müdafiəsi də aktual məsələlərdən biridir. Həmin hüquqların müdafiəsi əsasən bir neçə formada həyata keçirilə bilər. Bunlar məhkəmə yolu ilə müdafiəsi ilə yanaşı, sığorta hüquqlarının inzibati qaydada müdafiəsi və məhkəməyə alternativ qaydada müdafiəsidir. Sığorta hüquqlarının inzibati qaydada müdafiəsi dedikdə, həmin hüquqların sığorta sektorunu tənzimləyən və ona nəzarət edən müvafiq icra hakimiyyətləri vasitəsi ilə müdafiəsi nəzərdə tutulur. Məhz "Sığorta fəaliyyəti" haqqında Azərbaycan Respublikası Qanununun 12-ci fəslində "Sığorta sektorunda tənzimləmə və nəzarət" başlığı ilə sığorta sektorunda tənzimləmə və nəzarətin vəzifələri,

səyyar yoxlamalar, maliyyə bazarlarına nəzarət orqanının təqdimatları, sanksiyaları və digər məsələlər nizamlanaraq sığorta müqaviləsi subyektlərinin hüquqlarının maliyyə bazarlarına nəzarət edən müvafiq icra hakimiyyəti orqanı vasitəsilə inzibati qaydada müdafiəsi həyata keçirilmişdir. Respublikamızda maliyyə bazarlarında 2016-cı ildə aparılan əsaslı islahatlar nəticəsində həmin müvafiq icra hakimiyyəti orqanı dəyişdirilmişdir. Belə ki, 4 mart 2016-cı il tarixli Azərbaycan Respublikasının Qanunu ilə "Sığorta fəaliyyəti haqqında" Qanunun 1.1.9-cu maddəsi yeni redaksiyada verilmişdir. Yeni redaksiyada qeyd edilir ki, "maliyyə bazarlarına nəzarət orqanı – maliyyə bazarlarında tənzimləmə və nəzarətin həyata keçirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Prezidentinin) yaratdığı qurumdur". Dissertasiya işində sığorta hüquqlarının inzibati qaydada müdafiəsi ilə qanunvericilikdə edilən son dəyişikliklərin kompleks tədqiq olunması onun aktuallığını bir daha təsdiqləyir.

Sığorta münasibəti subyektlərinin sahib olduğu hüquqların müdafiə formalarının biri kimi məhkəməyə alternativ yollarla sığorta hüquqlarının müdafiəsinin tədqiq olunması, dissertasiya işinin müasir dövrün tələblərinə cavab verən aktual bir tədqiqat işi olduğunu təsdiqləyir. Məhz sığorta müqaviləsinin bağlanması ilə sığorta hüquqları əldə edən onun subyektləri həmin hüquqların müdafiəsini məhkəmə yolu ilə və inzibati qaydada tələb edə bildiyi kimi, sığorta sektorları inkişaf etmiş bir çox ölkədə olduğu məhkəməyə alternativ yollarla də tələb edə bilər. Burada model kimi qardaş Türkiyə Respublikasının sığorta qanunvericiliyində tənzimlənmiş "sığorta arbitrajı (tahkimi)" və "sığorta hakimlik-ekspertliyi" adlanan məhkəməyə alternativ müdafiə yollarının tədqiq olunmasının əhəmiyyətli olduğunu hesab edirik. Belə ki, Türkiyə Respublikasının sığorta sektorunda mübahisələrin həlli üçün tətbiq edilən məhkəməyə alternativ xüsusi yollar olan "sığorta arbitrajı (tahkimi)" və "sığorta hakimlik-ekspertliyi" vasitəsi ilə sığorta mübahisələri bu sahədə ixtisaslaşmış, böyük təcrübəyə malik olan sığorta arbitr və hakim-ekspertləri vasitəsi ilə keyfiyyətli həll edildiyi kimi, məhkəmələrin onsuzda çox olan iş yükü də azaldılmışdır. Qardaş Türkiyə Respublikasında uğurlu bir şəkildə tətbiq edilən bu sistemin Azərbaycanda da qurulması və tənzimlənməsi həm sığorta müqaviləsinin subyektlərinin müdafiəsi, həm sığorta mübahisələrinin bu sahədə ixtisaslaşmış, böyük təcrübəyə sahib olan sığorta arbitr və ekspertlər arbitr və hakim-ekspertləri vasitəsi ilə keyfiyyətli həlli, həm də məhkəmələrin onsuz da çox olan iş yükünün azaldılması baxımından faydalı və eyni zamanda aktualdır. Qeyd edilən sistemin tədqiq olunması isə şübhəsiz ki, dissertasiya işinin aktual olduğunu sübut edir.

**Tədqiqat mövzusunun işlənmə dərəcəsi.** Sığorta müqaviləsi

təməlində formalaşan özəl sığorta institutu, onun ayrı-ayrı hissələrinin ölkəmizdə hüquqi baxımdan lazımı səviyyədə tədqiq olunduğunu demək çətindir. Bununla birlikdə bəzi alimlər özəl sığortaya, onun ayrı-ayrı institutlarına dair müxtəlif araşdırmalar aparmışdır. Buna örnək olaraq A.Kərimov, M.Yolçiyev, Z.Mirzəyev, L.Əliyeva, S.Allahverdiyev, B.Əsədov, M.Abbasbəyli və digərləri göstərilə bilər .

Qeyd etməliyik ki, sığorta anlayışı və onun ayrı-ayrı hissələri H.Denenberg, R.Mehr, E.Cammack, A.Willett, S.Bruck, H.Möller, A.Bozer, E.Güvel, M.Çeker, R.Kender, K.Pekiner, K.Çuhacı, Ö.Akmut, B.Yaslıdağ, V.Y.Abramov, O.İ.Kryuqer, V.B.Qommellya, V.V.Şaxov, A.K.Şixov, Y.B.Foqelson və digərləri kimi bir çox xarici ölkə alimlərinin də araşdırma predmeti olmuşdur. Lakin onlar da sığorta münasibəti subyektlərinin hüquqlarını və onların müdafiə formalarını yetərli qədər araşdırmamış və öyrənməmişdir.

Bütün bunları nəzərə alaraq müəllif dissertasiya işində sığorta münasibəti subyektlərinin hüquqlarını və onların müdafiə formalarını kompleks tədqiq etmişdir.

**Tədqiqatın obyektini** Azərbaycan Respublikasında sığorta hüququ və onun müdafiə formalarının müəyyən edilməsi ilə bağlı ictimai münasibətlər təşkil edir.

**Tədqiqatın predmetini** Azərbaycan Respublikası Mülki Məcəlləsinin sığorta institutunu nəzərdə tutan 50-ci fəslinin, "Sığorta fəaliyyəti" haqqında qanunun, "İcbari sığorta" haqqında qanunun, "Tibbi sığorta" haqqında qanunun və digər normativ-hüquqi aktların hüquqi təhlili, sığorta hüququ sahəsindəki elmi araşdırmaların təhlili və tədqiqi təşkil edir

**Tədqiqatın məqsədi** sığorta müqaviləsinə, onun əsasında meydana gələn sığorta münasibətlərinə, bu münasibətlərin subyektlərinə, həmin subyektlərin hüquqlarına, bu hüquqların müdafiə formalarına dair tədqiqat aparıb, bu sahədəki problemlərin təhlili və onların həll olunması, elmi nəticələrin əldə edilməsidir.

Bu məqsədə nail olunması istiqamətində aşağıdakı **vəzifələr** müəyyən olunmuşdur:

- Sığortanın hüquqi anlayışı və ünsürlərini təsbit etmək;
- Sığortanın tarixi inkişafı prosesini təhlil etmək;
- Sığortanın müxtəlif meyarlar baxımından təsnifatını aparmaq;
- Obyektiv və subyektiv sığorta hüququ anlayışlarını tədqiq etmək;
- Sığorta hüququnun əsası kimi sığorta müqaviləsini araşdırmaq;
- Sığorta müqaviləsinin subyektlərini təhlil və tədqiq etmək;
- Sığorta münasibəti subyektlərinin hüquqlarını təhlil və tədqiq etmək;
- Sığorta hüquqlarının inzibati qaydada müdafiə olunmasını tədqiq

etmək;

- Sığorta hüquqlarının məhkəməyə alternativ qaydada müdafiə olunmasını tədqiq etmək;

- İnkişaf etmiş xarici ölkələrin sığorta qanunvericiliklərini də nəzərə alaraq Azərbaycan Respublikası Sığorta qanunvericiliyinin inkişafına dair təkliflər hazırlamaq.

**Tədqiqatın metodoloji əsasını** dünyada baş verən hadisələrin və proseslərin obyektiv elmi dərk edilməsinin dialektik metodu, bundan irəli gələn ümum nəzəri və xüsusi elmi metodlar: nəzəri-təhlil metodu, tarixi, müqayisəli-hüquqi, sistemli-struktur, məntiqi metodlar, ümumidən xüsusiyə keçid metodu, abstraktdan konkretliyə doğru metodu təşkil edir.

**Tədqiqatın normativ bazası** qismində Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Sığorta fəaliyyəti" haqqında Qanunu, "İcbari sığorta" haqqında Qanunu, "Tibbi sığorta" haqqında Qanunu və digər normativ-hüquqi aktları təhlil edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, işdə ilk dəfə sığorta münasibəti subyektlərinin hüquqları və onların müdafiə formalarının kompleks və hərtərəfli nəzəri-hüquqi təhlili aparılmışdır. Bu tədqiqatın kontekstində müəllif maliyyə bazarlarında, xüsusilə sığorta bazarlarında olan dinamikanı və tez-tez meydana gələn yenilikləri də nəzərə alaraq sığorta münasibəti subyektlərinin hüquqlarının hüquqi əsaslarını öyrənmişdir.

Müdafiyəyə aşağıdakı **yeni elmi müddəalar** çıxarılmışdır:

1) Sığorta fəaliyyəti haqqında Qanunun 14.3.1.1 və 14.3.1.2-ci maddələri ilə müvafiq olaraq tibbi sığorta və fərdi qəza sığortası qeyri-həyat sığortası sinifləri hesab olunmuşdur. Bu sığorta sahələrinin mahiyyəti nəzərə alınaraq onların həyat sığortası sinifi olaraq Qanunda tənzimlənməsi təklif olunur.

2) Sığorta fəaliyyəti haqqında qanunun 14.3.6-cı maddəsində gələcəkdə ortaya çıxan mübahisələr nəticəsində hüquqi müdafiə, məsləhət, danışıqların aparılması və bununla əlaqədar digər hüquqi xidmətlərin əldə edilməsi ilə bağlı, həmçinin istintaq, məhkəmə, arbitraj və digər bu kimi icraatların keçirilməsi zamanı ortaya çıxan xərclərin tam və ya qismən ödənilməsi üçün sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan xərclərin sığortası "hüquqi xərclərin sığortası" kimi məchul bir termin ilə ifadə olunmuşdur. Həmin anlayışın "hüquqi xidmət xərclərinin sığortası" termini ilə ifadə olunması təklif olunur.

3) Sığorta müqaviləsinin anlayışı həm həyat sığortaları üçün həm də qeyri həyat sığortaları üçün Mülki Məcəllənin 883.1-ci maddəsində "Sığorta müqaviləsi sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir

hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşmadır" formasında verilmişdir. Həmin anlayışın həyat sığortaları və qeyri həyat sığortalarının fərqli xüsusiyyətlərini də nəzərə alaraq ayrı-ayrı verilməsi təklif olunur.

4) Mülki Məcəllənin 886.1-ci maddəsinə əsasən sığorta obyekti sığortalının, yaxud sığorta olunanın qanuna zidd olmayan hər hansı əmlak mənafeyidir. Yenə həmin məcəllənin 889.1-ci maddəsinə əsasən sığorta marağı sığorta hadisəsinin baş verəcəyi təqdirdə şəxsin maliyyə itkisinə məruz qalması ehtimalı ilə şərtlənən və onun sığorta obyektini sığorta etdirmək hüququnun əsaslandığı mənafedir. Həm sığorta obyekti, həm də sığorta marağı sığortalı şəxsin əmlak mənafeyi olduğu üçün eyni məfhumlar hesab olunur. Bu səbəblə həmin məfhumların "sığorta mənafeyi" termini ilə ifadə olunması təklif olunur.

5) Mülki Məcəllənin 906.1-ci maddəsinə qeyd olunur ki, "icbari sığorta qanunlarında və ya könüllü sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsi halında, sığorta təminatının müddəti sığorta müqaviləsinin bağlandığı gün saat iyirmi dörddən başlanır və icbari sığorta qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, sığorta müqaviləsinə əsasən həmin müqavilənin qüvvədə olduğu sonuncu gün saat iyirmi dörddə başa çatır". Bu maddənin aşağıdakı redaksiyada verilməsi təklif olunur:

"906.1 İcbari sığorta qanunlarında və ya könüllü sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta haqqının ilk hissəsinin və ya tamamının ödənilməsi ilə sığorta təminatı başlanır və qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla həmin müqavilənin qüvvədə olduğu sonuncu gün saat iyirmi dörddə başa çatır".

6) Mülki Məcəllənin 911-ci maddəsinin aşağıdakı redaksiyada bir bəndin əlavə olunması təklif olunur:

"911.4. Sığortalı bu Məcəllənin 911.2-ci və 911.3-cü maddələrinin tələblərini pozaraq sığortaçıya əhəmiyyətli hallar haqqında məlumat verməzsə və ya yanlış məlumat verərsə sığortaçı bu pozuntunu öyrəndikdən sonra 1 ay ərzində müqaviləni ləğv edə bilər. Əgər məlumatların yanlış olduğu sığortaçıya məlum idisə və ya sığortalı yanlış məlumatların verilməsində təqsirli deyildirsə, müqavilənin ləğvinə yol verilmir".

7) Mülki Məcəllənin 919.1.7-ci maddəsinin aşağıdakı redaksiyada verilməsi təklif olunur:

"sığortalı sığorta haqqını icbari sığorta qanunlarında və ya sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə, bu Məcəllənin 903.5-ci maddəsi nəzərə alınmaqla"

8 ) Mülki Məcəllənin 903.6-cı maddəsinə aşağıdakı redaksiyada 2-ci

cümlənin əlavə olunması təklif olunur:

"1 ay ərzində sığorta haqqı ödənilməsə, sığorta müqaviləsindən imtina edilmiş hesab olunur".

9) İcbari sığorta haqqında qanunun 25-ci maddəsinin adının aşağıdakı redaksiyada verilməsi və maddədəki "subroqasiya" ifadələrinin "reqres" ifadələri ilə dəyişdirilməsi təklif olunur:

"Maddə 25. İcbari sığorta üzrə reqres hüququnun yaranmasının əsasları"

10) Mülki Məcəllənin 919.1.9-cu maddəsinin aşağıdakı redaksiyada verilməsi təklif olunur:

"sığortalı və ya sığortaçı sığorta müqaviləsinə qanundakı əsaslarla vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etdikdə".

11) Mülki Məcəllənin 909-cu maddəsinə aşağıdakı redaksiyada 4-cü bəndin əlavə olunması təklif olunur:

"Faydalanan şəxs, sığorta ödənişinin ödənilməsindən imtina bildirişi və ya sığorta ödənişinin yaxud dəyən zərərin miqdarına dair bildiriş ilə razılaşmadıqda, maliyyə bazarına nəzarət edən quruma və ya müvafiq məhkəməyə şikayət vermək hüququna malikdir".

12) Sığorta mübahisələrinin məhkəməyə alternativ yollarla (sığorta arbitrajı yolu, sığorta hakim-ekspertliyi yolu) həll edilməsi üçün Sığorta fəaliyyəti haqqında Azərbaycan Respublikası Qanununa bu alternativ yolların təşkilati hüquqi əsaslarını tənzimləyən normaların əlavə olunması təklif olunur.

13) Mülki Məcəllədə, Sığorta fəaliyyəti haqqında Qanunda və digər qanunlarda tənzimlənmiş sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs və müstəqil ekspertlə bağlı normativ hüquqi bazanın hazırlanması və qəbul olunması təklif olunur.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiya işinin müdafiəyə çıxarılmış elmi müddəaları və nəticələri sığorta münasibəti subyektlərinin hüquqları və onların müdafiə formaları haqqında elmi-nəzəri dünyagörüşünün formalaşması və dərinləşməsinə kömək edə bilər.

Dissertasiya işində irəli sürülmüş təkliflər sığorta hüququ, mülki hüquq, sahibkarlıq hüququ üzrə normativ hüquqi aktların hazırlanmasında, hüquq tətbiqetmə fəaliyyətində, sığortanın ayrı-ayrı məsələləri üzrə elmi-tədqiqat işlərinin aparılmasında faydalı ola bilər. Dissertasiya işinin materiallarından tədris prosesində və doktorantların təlim kurslarında, gələcək elmi tədqiqatların yazılması prosesində istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "Mülki proses və kommersiya hüququ" kafedrasında yerinə yetirilmiş, həmin kafedranın iclasında geniş müzakirə

olunaraq əsas müdafiəyə tövsiyə edilmişdir. Dissertasiya işinin nəticələri və müddəaları Bakı Dövlət Universitetində, Azərbaycan Respublikası Milli Elmlər Akademiyasında keçirilmiş respublika və beynəlxalq elmi-praktiki konfranslarda məruzə edilmiş, habelə tədqiqatının əsas məzmunu və müddəaları müəllifin dərc edilən xarici və yerli elmi nəşrlərdə dərc olunmuş məqalələrində öz əksini tapmışdır.

**Tədqiqatın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində işin aktuallığı, obyekti, işlənmə dərəcəsi və yeniliyi, işin məqsəd və vəzifələri, işinin metodoloji əsası, müdafiəyə çıxarılmış müddəalar, işinin nəzəri və təcrübi əhəmiyyəti, işinin nəticələrinin aprobasiyası kimi önəmli məsələlərə toxunulur və işin strukturundan bəhs olunur.

Dissertasiya işinin **"Sığorta və sığorta hüququ anlayışları"** adlanan birinci fəsli beş paraqrafdan ibarətdir.

**"Sığortanın hüquqi anlayışı və ünsürləri**" adlanan birinci paraqrafda nəzəriyyə və praktikadakı fikirlər əsasında sığorta institutunun anlayışı verilmiş və onun ünsürləri təsbit edilmiş, ayrıca sosial sığorta ilə özəl sığorta müqayisə olunmuşdur.

İşdə qeyd edilir ki, "sığorta" sözü italyan dilindəki "sicurita" sözündən əmələ gəlmişdir və təhlükəsizlik, təminat, etimad və digər bu qəbildən mənaları daşıyır. Hüquq elmində isə sığorta, dövlətin sosial təminat sisteminin formalaşdırılmasına xidmət edən bir hüquqi vasitə, mexanizm kimi qəbul olunur. Ayrıca qeyd olunur ki, insan həyatı boyu özünü yoxsulluğa düçar edən, gələcəyini təhlükəyə salan hadisələrdən qorunmaq ehtiyacını hiss etmişdir. Təbiətin və iqtisadi həyatın insanın qarşısına çıxardığı təhlükələrin ağır nəticələrinə qarşı qorunmaq və təminat altında olmaq insanlıq tarixi ilə həmyaşdır. Xəstəlik, əlillik və yaşlılıq kimi insanın qaça bilmədiyi, yəni alın yazısı olan hadisələrin, aclıq, səfalət və yoxsulluqla eyni mənaya gəldiyi dövrlərdə bu hadisələrin təsirindən xilas ola bilməyən insanın azad bir insan olduğunu irəli sürmək də mümkün olmadığı kimi, onu bu problemlərin həllini fikirləşmək təcrübəsi ilə də qarşı qarşıya qoymuşdur. Bu problemlər ilk dövrlərdə iməcilik və bənzəri yollarla həll edilməyə çalışılsa da, bu yetərli olmadığı üçün dövlətin sosial təminat sisteminin formalaşdırılmasına xidmət edən bir hüquqi vasitə, mexanizm kimi sığorta kəşf edilmişdir.

Respublikamızda "Sığorta fəaliyyəti" haqqında qanun "sığorta" anla-

yışının da tərifini vermişdir. Belə ki, həmin qanunun 1.1.1-ci maddəsinə görə, sığorta, sığortalının və ya sığorta olunanın əmlakı, həyatı, sağlamlığı, mülki məsuliyyəti, həmçinin qanunvericiliklə qadağan olunmayan fəaliyyəti, o cümlədən sahibkarlıq fəaliyyəti ilə əlaqədar olan əmlak mənafelərinin müdafiəsi sahəsində riskin ötürülməsinə və ya bölüşdürülməsinə əsaslanan münasibətlər sistemidir.

**"Sığortanın tarixi inkişafı"** adlanan ikinci paraqrafda sığortanın tarixi inkişafından bəhs olunmuşdur. Paraqrafda göstərilir ki, sığortanın tarixi insanlıq tarixi qədər qədimdir, qəbilə formasında yaşayan ibtidai quruluşlarda sığorta anlayışı mövcud deyildi. Sığorta haqqının ödənilməsi sisteminə bağlı olan sığortaların isə, ilk dəfə İtaliyada 11-ci əsrdə ortaya çıxdığı qeyd olunur. Belə ki, 11-ci əsrdə Romada kiçik tacirlərin qarşılıqlı yardım fondları mövcud idi. Həmin fondlar vasitəsi ilə onlar ödədikləri haqq müqabilində qarşılaşa bildikləri risklərdən təminat altına alınırdılar. Bu fondların müasir dövrdəki qarşılıqlı sığortanın əsasını təşkil etdiyi qeyd olunur.

Ölkəmizdə sığortanın tarixi inkişafından da bəhs olunub və bu tarixi inkişaf üç mərhələyə bölünüb. Birinci mərhələ, 28 aprel 1920-ci ildən əvvəlki dövr (Çar Rusiyası dövrü); ikinci mərhələ, 28 aprel 1920-ci ildən sonrakı dövr (SSRİ dövrü); üçüncü mərhələ, 1991-ci ildən sonrakı dövr (Müstəqil Azərbaycan dövrü).

Birinci fəslin üçüncü paraqrafı "**Sığortanın növləri"** adlanır. Müxtəlif meyarlar nəzərə alınaraq sığorta sahələri təsnif olunub. Belə ki, özəl sığortaların böyük bir qismi könüllü olduğu halda bəzi növləri icbaridir. Bu təsnifat "Sığorta fəaliyyəti" haqqında qanunun 3-cü maddəsində tənzimlənmişdir. Ümumiyyətlə icbarı sığorta dövlətin sosial siyasəti baxımından əhəmiyyətli hesab edilən sahələrdə insanlara dəyə biləcək maddi və fiziki zərərlərlə bağlı maliyyə risklərinin azaldılması məqsədilə müəyyən risklərin sığortalanmasının qanunla tələb olunduğu, əsas qayda və şərtlərinin qanunvericiliklə müəyyən edildiyi sığortadır.

Paraqrafda həm də qeyd edilir ki, sığorta ödənişinin növü baxımından sığortalar məbləğ sığortası və zərər sığortası formasında da ayrıla bilər.

**"Sığorta hüququ anlayışı"** adlanan dördüncü paraqrafda obyektiv sığorta hüququ və subyektiv sığorta hüququ təhlil edilmişdir. Həmin paraqrafda qeyd edilir ki, sığorta hüququ anlayışı təsbit edilmədən əvvəl "hüquq" anlayışının mənasını təsbit etmək önəmlidir. "Hüquq", "haq" sözünün cəm formasıdır və dilimizə də Ərəb dilindən keçmişdir. Doktrinada "hüquq" sözü əsasən iki mənada istifadə olunur. Bunlar "subyektiv hüquq" və "obyektiv hüquqdur". Subyektiv hüquq, obyektiv hüququn pred-

meti olub ayrı-ayrı subyektlərin sahib olduğu səlahiyyəti, yəni subyektin hüququnu ifadə edir. Subyektiv hüquq, başqa bir ifadə ilə "haq" olaraq adlandırıla bilər.

Obyektiv hüquq isə, cəmiyyətdə şəxslərin biri-biriləri ilə və ya şəxslərin qurduqları birliklər ilə yaxud bu birliklərin bir-biriləri ilə münasibətlərini tənzimləyən, əməl edilməsi dövlətin gücü ilə təmin edilmiş ümum məcburi normalardır.

Paraqrafda ayrıca qeyd edilir ki, subyektiv sığorta hüququnun subyektiv hüquqların təsnifatındakı yerinin də təsbit olunması önəmlidir.

Birinci fəslin **"Sığorta hüququnun əsası kimi sığorta müqaviləsi"** adlanan beşinci paraqrafında sığorta müqaviləsi, onun anlayışı, mahiyyəti, forması təhlil edilmişdir. Orada qeyd edilir ki, sığorta münasibətinin əsasını sığorta müqaviləsi təşkil edir. Başqa bir ifadə ilə subyektiv sığorta hüquqlarının əsası sığorta müqaviləsidir. Məhz mülki hüquq qanunvericiliyinə görə mülki hüquqların və vəzifələrin əmələ gəlməsi əsasları müqavilələr, dövlət orqanlarının və yerli özünüidarə orqanlarının aktları, məhkəmə aktları, əmlak əldə edilməsi, əqli fəaliyyətin nəticələri, başqa şəxsə zərər vurulması, əsassız varlanma, fiziki və hüquqi şəxslərin digər hərəkətləri, hüquqi hadisədir.

Dissertasiya işinin ikinci fəsli **"Sığorta müqaviləsindən onun subyektləri üçün əmələ gələn hüquqlar"** adlanır və dörd paraqrafdan ibarətdir.

**"Sığorta müqaviləsinin subyektləri"** adlanan birinci paraqrafda sığorta müqaviləsinin, başqa bir ifadə ilə sığorta münasibətinin subyektlərinin kimlərdən ibarət olduğu tədqiq edilmişdir. Həmin paraqrafda qeyd olunur ki,  sığorta münasibəti sığorta müqaviləsi əsasında formalaşan mülki hüquqi münasibətdir.

Sığorta qanunvericiliyi sığorta müqaviləsinin subyektlərinin kimlərdən ibarət ola biləcəyini tənzimləmişdir. Belə ki, Mülki Məcəllənin 884.2-ci maddəsinə görə, sığorta və ya təkrarsığorta müqaviləsinin tərəfi olan, yaxud belə müqavilənin həyata keçirilməsi üzrə hüquqlara və (və ya) vəzifələrə malik olan şəxslər sığorta münasibətlərinin subyektləridir.

**"Sığorta müqaviləsindən sığortaçı üçün əmələ gələn hüquqlar**" adlanan ikinci paraqrafda sığortaçının sığorta müqaviləsi əsasında əldə etdiyi subyektiv hüquqlar tədqiq edilmişdir. Paraqrafda qeyd olunur ki, bütün iki tərəfli müqavilələr kimi, sığorta müqaviləsinin tərəfləri və digər subyektləri həmin müqavilədən bəzi subyektiv hüquqlar əldə edirlər.

Sığorta qanunvericiliyini nəzərə alaraq deyə bilərik ki, sığortaçı aşağıdakı hüquqları əldə edir: 1) sığortalılar ilə müvafiq sığorta müqavilələrini bağlamaq hüququ; 2) sığortalıdan müvafiq məlumatları tələb etmək hüqu-

qu; 3) sığorta riskini qiymətləndirmək hüququ; 4) sığorta haqlarını almaq hüququ; 5) sığorta hadisəsinin baş vermə səbəblərini araşdırmaq hüququ; 6) sığorta hadisəsi nəticəsində dəymiş zərəri müəyyən etmək hüququ; 7) sığorta ödənişini ödəməkdən imtina etmək hüququ; 8) müvafiq şəxslərə qarşı subroqasiya hüququndan istifadə etmək; 9) sığorta müqaviləsinin etibarsızlığını tələb etmək hüququ; 10) sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsini tələb etmək hüququ; 11) sığorta qaydalarını hazırlamaq, onları təsdiqlətmək və istifadə etmək hüququ; 12) sığorta qanunvericiliyində və müqaviləsində nəzərdə tutulmuş digər hüquqlar.

**"Sığorta müqaviləsindən sığortalı üçün əmələ gələn hüquqlar"** adlanan üçüncü paraqrafında sığortalının sahib olduğu hüquqlar tədqiq edilmişdir. Həmin paraqrafda qeyd edilir ki, sığorta müqaviləsinin digər tərəfi sığortalıdır. Sığorta haqqında qanunvericiliyi nəzərə alaraq sığortalının aşağıdakı hüquqları olduğunu deyə bilərik: 1) sığortaçıdan sığorta müqaviləsi bağlanarkən və müqavilə bağlandıqdan sonra müvafiq məlumatları almaq hüququ; 2) sığortaçıdan sığorta şəhadətnaməsini tələb etmək, itirildikdə onun dublikatını almaq hüququ; 3) qanunvericilikdə və müqavilədə nəzərdə tutulmuş hallarda və qaydada, o cümlədən məbləğdə və müddətdə sığorta ödənişini almaq hüququ; 4) əmlaka və ya sağlamlığa dəymiş zərərin məbləğini müəyyənləşdirmək məqsədi ilə qanunvericiliklə nəzərdə tutulmuş qaydada müstəqil ekspertin xidmətlərindən istifadə etmək hüququ; 5) sığortaçının sığorta ödənişindən imtina barədə qərarından və ya sığorta ödənişinin məbləği ilə razılaşmadığı halda qanunvericilikdə nəzərdə tutulmuş qaydada şikayət etmək hüququ; 6) Sığorta müqaviləsinin etibarsızlığını tələb etmək hüququ; 7) sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsini tələb etmək hüququ. 9) sığorta qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**"Sığorta müqaviləsindən onun digər subyektləri üçün əmələ gələn hüquqlar"** adlanan dördüncü paraqrafda isə sığorta olunan şəxsin, faydalanan şəxsin, zərər çəkən şəxsin və digər subyektlərin sığorta müqaviləsi əsasında əldə etdiyi hüquqlar tədqiq olunur.

Sığorta münasibətində sığorta müqaviləsinin tərəflərindən savayı iştirak edən şəxslər sığorta münasibətinin subyektləri hesab olunur və bunlar sığorta müqaviləsinin həyata keçirilməsi üzrə hüquqlara və (və ya) vəzifələrə malik olan şəxslər adlanır. Buraya sığorta olunan, faydalanan şəxs və zərər çəkən şəxs, tibbi sığortada tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan şəxslər, sığortalı malı əldə edən, sığortalı mal üzərində girov hüququ olan şəxslər və digər şəxslər daxildir.

Sığorta olunan, əmlak mənafeləri sığorta müqaviləsi əsasında sığortalanan şəxsdir. Şəxsi sığorta üzrə sığorta müqaviləsində sığorta

olunan qismində başqa şəxs nəzərdə tutulmayıbsa, sığortalı eyni zamanda sığorta olunan sayılır. Əmlak sığortası üzrə sığorta müqaviləsində sığorta olunan qismində başqa şəxs nəzərdə tutulmasından asılı olmayaraq, sığortalının sığorta olunan kimi tanınması heç bir halda, o cümlədən müqavilə şərtləri ilə məhdudlaşdırıla bilməz.

Faydalanan şəxs icbari sığorta qanunlarına və ya sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişi verilməli olan şəxsdir. Sığorta müqaviləsində faydalanan şəxs qismində başqa şəxs nəzərdə tutulmamışdırsa, sığortalı və (və ya) sığorta olunan faydalanan şəxs sayılır.

Zərərçəkən şəxs, şəxsi sığorta üzrə sığorta hadisəsi nəticəsində sağlamlığına zərər dəymiş şəxs, onun öldüyü halda isə ailə üzvləri hesab olunduğu halda, əmlak sığortası üzrə sığorta hadisəsi nəticəsində zərər dəymiş əmlakla bağlı sığorta marağı olan istənilən şəxsdir, onun həmin əmlakın mülkiyyətçisi olub-olmaması önəmli deyildir.

İcbari sığorta haqqında Qanunun 7-ci maddəsində zərərçəkən şəxsin anlayışı üçüncü şəxs olaraq verilmişdir. Buna görə, sığortalı və (və ya) sığorta olunanın ailə üzvləri istisna olmaqla, bu qanuna görə mülki məsuliyyətin icbari sığortası üzrə sığorta müqaviləsinin tərəfi olmayan, sığorta olunanın hərəkəti və ya hərəkətsizliyi nəticəsində zərər çəkən, eyni zamanda sığorta ödənişi almaq hüququna malik olan fiziki şəxslər – fiziki şəxs öldüyü halda, onun ailə üzvləri – və ya hüquqi şəxslər, yaxud onların hüquq varisləri üçüncü şəxs sayılırlar.

İşdə qeyd olunur ki, tibbi sığortanın subyektlərindən biri də tibbi sığorta təşkilatları, tibb müəssisələri və qanunvericilikdə müəyyən olunmuş qaydada təsis edilmiş özəl tibbi praktika ilə məşğul olan şəxslərdir. Tibbi sığorta haqqında qanunvericilik tibbi sığorta münasibətinin subyekti olan bu qurumlar və şəxslərə də müəyyən hüquqlar vermişdir. Belə ki, Tibbi sığorta haqqında qanunun 14-cü maddəsində qeyd olunur ki, mülkiyyət formasından asılı olmayaraq qanunvericilikdə müəyyən olunmuş qaydada fəaliyyət göstərən tibb müəssisələrinin və özəl tibbi praktika ilə məşğul olan şəxslərin tibbi sığorta sistemində tibbi xidmətlər göstərmək hüququ vardır.

Dissertasiya işinin üçüncü fəsli **"Sığorta hüquqlarının müdafiə formaları"** adlanır və iki paraqrafdan ibarətdir.

**"Sığorta hüquqlarının inzibati qaydada müdafiəsi"** adlanan birinci paraqrafda inzibati yolla yəni, maliyyə bazarlarına nəzarət palatası vasitəsilə sığorta hüquqlarının müdafiə olunması tədqiq olunur. Bu paraqrafda qeyd olunur ki, sığorta müqaviləsinin bağlanması yolu ilə onun subyektlərinin əldə etdiyi mülki hüquqların müdafiəsi də aktual məsələlərdən biridir. Sığorta hüquqlarının inzibati qaydada müdafiəsi dedikdə, həmin

hüquqların sığorta sektorunu tənzimləyən və ona nəzarət edən müvafiq icra hakimiyyəti orqanları vasitəsi ilə müdafiəsi nəzərdə tutulur.

Müəllif hesab edirk ki,"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci fəslində "sığorta sektorunda tənzimləmə və nəzarət" başlığı ilə sığorta sektorunda tənzimləmə və nəzarətin vəzifələri, səyyar yoxlamalar, maliyyə bazarlarına nəzarət orqanının təqdimatları, sanksiyaları və digər məsələlər nizamlanaraq sığorta müqaviləsi subyektlərinin hüquqlarının maliyyə bazarlarına nəzarət edən müvafiq icra hakimiyyəti orqanı vasitəsilə inzibati qaydada müdafiəsi həyata keçirilməlidir.

Maliyyə bazarlarında 2016-cı ildə aparılan əsaslı islahatlar nəticəsində həmin müvafiq icra hakimiyyəti orqanı dəyişdirilmişdir. Belə ki, 4 mart 2016-cı il tarixli Azərbaycan Respublikasının Qanunu ilə "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunun 1.1.9-cu maddəsi yeni redaksiyada verilmişdir. Həmin yeni redaksiyada qeyd edilir ki, maliyyə bazarlarına nəzarət orqanı – maliyyə bazarlarında tənzimləmə və nəzarətin həyata keçirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Prezidentinin) yaratdığı qurumdur.

**"Sığorta hüquqlarının məhkəməyə alternativ qaydada müdafiəsi"** adlanan ikinci paraqrafda inkişaf etmiş ölkələrdə tətbiq edilən sığorta hüquqlarının məhkəməyə alternativ yollarla müdafiəsi qaydaları tədqiq olunur və Türkiyə modeli bir örnək kimi təklif olunur. Sığorta müqaviləsinin bağlanması ilə sığorta hüquqlarını əldə edən onun subyektləri həmin hüquqların müdafiəsini inzibati qaydada tələb edə bildiyi kimi sığorta sektorları inkişaf etdiyi bir çox qabaqcıl ölkələrdə məhkəməyə alternativ yollarla də tələb edə bilir. Məsələn, Türkiyə Respublikasında sığorta müqaviləsinin subyektləri öz hüquqlarının müdafiəsini "sığorta arbitrajı (tahkimi)" və "sığorta hakimlik-ekspertliyi" yolu kimi məhkəməyə alternativ yollarla da həyata keçirə bilərlər.

Belə vasitə Türkiyədə 3 iyun 2017-ci ildə qəbul edilmiş 5684 nömrəli Sığorta fəaliyyəti haqqında qanunda tənzimlənmişdir. Həmin qanunun 30-cu maddəsində qeyd olunur ki, sığorta etdirən və ya sığorta müqaviləsindən faydalanan şəxslər ilə sığorta riskini yüklənən tərəf arasında sığorta müqaviləsindən əmələ gələn mübahisələrin həlli məqsədi ilə Sığorta Birliyi nəzdində Sığorta Tahkim Komissiyası yaradılmışdır.

Türkiyə Respublikasında sığorta müqaviləsi subyektlərinin hüquqlarının müdafiəsi və sığorta mübahisələrinin keyfiyyətli həlli üçün tətbiq edilən bir digər məhkəməyə alternativ hüquq müdafiə yolu isə "sığorta hakim-ekspertliyi" yoludur. Ölkəmizdə sığorta sektorunda zərərin miqdarının qiymətləndirilməsi sahəsində müstəqil ekspertlərin xidmətindən istifadə edilə biləcəyi Mülki Məcəlləmizdə tənzimlənmişdir. Lakin həmin müstəqil

ekspertin necə təyin olunacağı, kim tərəfindən təyin olunacağı, kimin təyin olunacağı, hansı hüquq və vəzifələri sahib olduğu, verdiyi qərarın mahiyyətinin nə olduğu kimi məsələlər Türkiyədə olduğu kimi bizim qanunvericilikdə də tənzimlənmədiyi üçün, yəni həmin müstəqil ekspertin hüquqi bazası olmadığı üçün praktikada tətbiq olunmur. Hesab edirik ki, qanunvericilik həmin müstəqil ekspertin hüquqi bazasını tənzimləməli və onun tətbiqi maliyyə bazarlarına nəzarət qurumu tərəfindən təşviq olunmalıdır.

**Nəticə** hissəsində dissertasiya işinin tədqiqi, araşdırılması ilə edilən elmi nəticələr və təkliflər xülasə edilməklə ümumiləşdirilir, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi üçün nəzəri-praktiki təkliflər irəli sürülür.

**Dissertasiya işinin əsas müddəaları müəllif tərəfindən nəşr olunan aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:**

1. Sığortanın anlayışı və növləri. Qanun, 2014, №11, səh. 66-69.
2. Sığorta müqaviləsi. BDU-nun 95 illik yubileyinə həsr edilmiş hüquq fakültəsinin gənc alimlərin və magistrantların “Qloballaşma dövrü: Beynəlxalq standartlar və Azərbaycan qanunvericiliyinin müasir problemləri” mövzusunda elmi-praktiki konfransın materialları. Bakı, 10-11 fevral, 2015, s. 305-308.
3. Sığorta münasibətlərinin subyektləri. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci il dönümünə həsr olunmuş “Heydər Əliyevin Azərbaycan Respublikasının hüquq elminin və təhsilinin inkişafında rolu” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 5 may 2015, II cilddə, II-ci cild, s. 288-291.
4. Azərbaycan sığorta hüququnda yaşıl kart sistemi. Melikşah Universiteti hüquq fakultəsi dərgisi, Kayseri, iyun 2015, s. 477-488 (türk dilində).
5. Sığorta formaları və bəzi növləri: müqayisəli hüquqi təhlil. Qanun, 2016, №2, s. 73-76.
6. Zərər və məbləğ sığortası müqaviləsinin hüquqi əsasları. Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə, 2016, № 2, s. 259-264.
7. Sığorta hüququnun tarixi inkişafı. Qanun, 2018, № 6, s. 38-41.
8. Sığorta hüquqlarının inzibati qaydada müdafiəsi. Nəqliyyat hüququ, 2018, № 2, s. 21-29.
9. Защита страхового права в арбитражном (тахким) порядке в Турецкой Республике. Юридичний ВІСНИК, Наукові прачі Національного авіаційного університету, Київ, 2018, №2 (47), с. 134-140.

# SUMMARY

## Tural Imamali oglu Gozalzada
## Insurance law and forms of its protection


The degree of the research on the topic, the scientific novelty, the goals and objectives, the new provisions presented to the defense, the theoretical and practical significance of the study has been substantiated in the introduction.

The first chapter is called "The concept of insurance and insurance law" and consists of 5 paragraphs. This chapter examines the legal concept of insurance and its elements, the historical development of insurance, its types, also the concept of insurance, and the insurance contract, which is considered as the basis of insurance rights.

The second chapter of the thesis is entitled "Rights arising from the insurance contract for its subjects" and consists of four paragraphs. This chapter analyzes the questions of the composition of subjects of insurance law, the insurer's rights arising from the insurance contract, the rights of the insured arising from the insurance contract and the rights of other subjects of the insurance contract. According to the author, insurance law, by being a subjective right, expresses the right to be insured, which is possessed by the policyholder (or the insured), and the insurance right possessed by the insurer, and the subjective rights possessed by other participants in insurance relations.

The third chapter of the thesis "Forms of protection of insurance law" consists of two paragraphs. An administrative form of protection of insurance rights is analyzed based on the comparative analysis. At the same time, the protection of insurance rights is investigated as an alternative to judicial processes. Protection of the rights of the subjects of the insurance contract, acquired by them through the conclusion of such an agreement, is one of the important tasks. It is possible to protect insurance rights both in legal and administrative order, and in other forms. The protection of insurance rights administratively means the protection of these rights through the relevant executive authorities.

In conclusion, recommendations and proposals are presented, including their theoretical and practical importance in the international regulatory legal system.

# РЕЗЮМЕ

## Турал Имамали оглы Гезалзаде
## Страховое право и формы его защиты

В введении обосновывается степень разработанности темы, научная новизна, цели и задачи, представленные к защите новые положения, теоретическое и практическое значение исследования.

Первая глава называется «Понятие страхование и страховое право» и состоит из 5 параграфов. В этой главе рассматриваются юридическое понятие страхования и его элементы, историческое развитие страхования, виды страхования, дается понятие страхования, а также рассматривается договор страхования как основа страхового прав.

Вторая глава диссертационной работы называется «Права, вытекающие из договора страхования для его субъектов» и состоит из четырех параграфов. В данной главе исследованы вопросы состава субъектов страхового права, анализируется права страховщика, вытекающие из договора страхования, права страхователя, вытекающие из договора страхования, рассматривается права других субъектов договора страхования. По мнению автора будучи субъективным правом, страховое право выражает и право быть застрахованным, которым обладает страхователь (или застрахованный) и право страхования, которым обладает страховщик, и субъективные права, которыми обладают прочие участники страховых отношений.

Третья глава диссертационной работы «Формы защиты страхового права» состоит из двух параграфов. На основе сравнительного анализа рассматривается административная форма защиты страховых прав. Одновременно с этим исследуется защита страховых прав в порядке, альтернативном судебной деятельности. Защита прав субъектов договора страхования, приобретенных ими путем заключения такого договора, является одной из актуальных задач. Возможна защита страховых прав как в судебном и административном порядке, так и в альтернативных формах. Под защитой страховых прав в административном порядке подразумевается защита этих прав посредством соответствующих органов исполнительной власти.

В заключении представлены полученные в ходе исследования выводы и предложения, в том числе, раскрыто их теоретико-практическое значение во внутригосударственной нормативной правовой системе.

Tiraj 100, Sifariş № 178
Çapa imzalanmışdır 10.07.2018
"Ecoprint" mətbəəsində çap olunmuşdur

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ТУРАЛ ИМАМАЛИ оглы ГЕЗАЛЗАДЕ**

# СТРАХОВОЕ ПРАВО И ФОРМЫ ЕГО ЗАЩИТЫ

Специальность: 5603.01 – «Гражданское право; семейное право; предпринимательское право; международное частное право»

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по праву**

**БАКУ – 2018**